***"Nizami Gəncəvi ili" başa çatdı. Postmüharibə ili Azərbaycanda mədəniyyət ili kimi xarakterizə olundu: Nizami ili, Şuşanın mədəniyyət paytaxtı elan edilməsi, Şuşada "Xarıbülbül" festivalının, Vaqif Poeziya Günlərinin bərpası, yeni Mədəniyyət nazirinin təyin edilməsi və ona Yeni Mədəniyyət Strategiyasının (YMS) hazırlanması tapşırığının verilməsi 2021-ci ilin birinci ayında baş verdi. Yəni müzəffər Ali Baş Komandan 2021-ci ilin xarakterini ilk aydan müəyyənləşdirmiş oldu. İkinci ayda qüdrətli söz sənətkarı Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə bağlı sərəncam verildi. Hər ayın mühüm mədəniyyət hadisələrini bir-bir sadalamadan deyək ki, Xarıbülbül festivalı da, Vaqif Poeziya Günləri də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yüksək səviyyədə təşkil olundu, Şuşanın Mədəniyyət paytaxtı elan edilməsi haqqında qanun qəbul edildi, Aşıq Ələsgərin heykəlinin ucaldılması haqqında sərəncam verildi.***

# Nizami ilindən Şuşa ilinə...




2021-ci ilin 24 dekabrında 60 yaşı tamam olan müzəffər Ali Baş Komandanımız öz yubiley günündə işğaldan azad olunmuş ərazilərimizə səfər edib, qəhrəman hərbçilərimizlə görüşməklə, öz yubileylər ənənəsini qürurlu bir şəkildə təkrarlamış oldu. Öncəki yubileylərini qaçqın və məcburi köçkünlərimizlə, hərbçilərimizlə birgə keçirən dövlət başçısı bununla bir örnək yaradıb. Bu, bir rəhbər ədəbidir, dövlətçilik mədəniyyətidir!

"Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Qanun layihəsi hər bir vətəndaşımızın, dünya azərbaycanlılarının, Azərbaycanın dostlarının həyatında əlamətdar, unudulmaz hadisə oldu. Şuşa şəhərinin statusunun ayrıca qanunla müəyyən edilməsi hüquq mədəniyyətimizdə, dövlət quruculuğu sahəsində önəmli hadisədir. Bu, yalnız hüquq mədəniyyətimizi deyil, həm də mədəniyyətin hüququnu göstərir. Dünyada şəhər–dövlətlər var. Şuşanın qanunla müəyyənləşən statusu, Mədəniyyət paytaxtı olması, bu ilin Şuşa ili elan edilməsi və s. Şuşanı ölkə kimi şəhər mənəvi ucalığına qaldırır.

...Əlbəttə, ötən il Nizami Gəncəvinin 880, Aşıq Ələsgərin 200 illiyi ilə bağlı çoxsaylı yerli və beynəlxalq tədbirlər keçirildi, kitablar nəşr edildi, elmi araşdırmalar davam etdirildi, yeniliklər üzə çıxdı və s. Bütün bunlarla yanaşı, ötən il "Şərqi Zəngəzur"un bir coğrafi termin olaraq rəsmi ədəbiyyatda öz yerini alması ilə də əlamətdar oldu. 2021-ci il Qarabağda, Şərqi Zəngəzurda vandallıqdan quruculuğa keçid ili oldu. Bu keçid Azərbaycanın qurucu üzünü bütün dünyaya bir daha göstərdi. Bunu görmək istəməyənlər belə gördü, qaçılmaz fakt qarşısında qaldı.

...Dünyaya səs salan "Şusa Bəyannaməsi"nin imzalanması, Qarabağın hava qapısı "Füzuli Hava limanı"nı iki qardaş ölkə başçısının birgə açması, İlham Əliyevlə Rəcəb Tayyyib Ərdoğanın Şuşada, Füzulidə, Zəngilanda... birgə verdiyi çox önəmli ismarıclar da 2021-ci ilin yaddaqalan hadisələridir... Və bu yerdə qardaş ölkədə 2021-ci ildə baş vermiş irimiqyaslı meşə yanğınlarını xatırlayaq: Azərbaycan yanğınsöndürənlərinin fədakar əməyi Türkiyə, Azərbaycan və bir sıra region ölkəsinin mediasında gündəm oldu.

2020-ci ildə Azərbaycanın Vətən müharibəsində qardaş Türkiyə bizə güclü mənəvi, siyasi, diplomatik, psixoloji dəstək verdi və Türkiyənin dəstəyi Zəfərin qazanılmasında böyük önəm daşıdı. "Şuşa Bəyannaməsi"ndən sonra Türkiyədə misli görünməmiş meşə yanğınları baş verincə, Azərbaycan yanğınsöndürənlərinin öz ormanlarımızı, öz ev - eşiyimizi qoruyurmuşcasına qardaş ölkədə fədakar əməklə iştirakı bizim doğrudan - doğruya "Bir millət, iki dövlət" olduğumuzu dünyaya bir daha göstərdi. Yanğınsöndürən maşınlarımızı görən qardaş ölkə vətəndaşlarının yollar boyu düzülüb, onlara sərin su, isti çörək, gül-çiçək verməsi də qardaşlıq duyğularının ifadəsi idi.

... Azərbaycan Prezidenti İlham Əliyevin 08.12.2020-ci il tarixli fərmanı əsasında yaradılan "YAŞAT" Fondunun əsas sınaq ili, çalışma ili də 2021-ci ilə düşdü. Yerli icra orqanlarında şəhid ailələri, yaralı qazilərlə iş üzrə yeni şöbələrin də sınaq ili, çalışma ili olan 2021-ci ildə yüzlərlə şəhid ailəsinin, yaralı qazinin qayğıları öyrənildi, onlara zəruri mənəvi-maddi dəstək göstərildi. Bu, vəfa borcu – mənəvi borcla yanaşı hüquqi xidmət mədəniyyətini, yeni qurumlar yaratmaq və operativ çalışma moduna keçirmək mədəniyyətini ifadə etmiş oldu. 2021-ci ildə zəfərin birinci ildönümü münasibəti ilə böyük amnistiya qəbul edildi. Bu amnistiya, yalnız xeyirxahlığın, humanizmin deyil, zəfər mədəniyyətimzin bir göstəricisi oldu.

2021-ci ildə intensiv xarakter alan, genişlənən Azərbaycan–Türkiyə, Azərbaycan –Türkiyə–Pakistan birgə təlimləri hərbi qardaşlıq mədəniyyətimizin göstəricisi oldu. Ağoğlanda qurulan Komando Briqadamız "Dəmir yumruq" mədəniyyəti əsasında, təhlükəsizlik mədəniyyətimizi göstərməkdədir...

2021-ci ildə Azərbaycanın Türk Dövlətləri Şurasına sədrlik müddəti uğurla başa çatdı. Türk Dövlətlər Şurasının əsasında Türk Dövlətləri Təşkilatının yaradılması, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Türk Dünyasının ali ordeni ilə təltif edilməsi 2021-ci ili həmişə qürurla xatırlamağımıza başqa bir vəsilədir. Həmçinin 2021-ci ildə Azərbaycan Qoşulmama Hərkatına ləyaqətli, xarakterli rəhbərliyini davam etdirdi, ölkəmizə daha bir dönəm sədrlik etibar edildi. BMT səviyyəsində bizim Prezidentin Qoşulmama Hərəkatının sədri olaraq, Hərəkatın mövqeyini, qərarını ifadə edərək, qaldırdığı məsələlər qəbul edildi: Bu, "peyvənd millətçiliyi"nə qarşı təsirli tədbirləri, pandemiyaya qarşı qlobal həmrəyliyi və s. özündə ehtiva edir... Bu, qlobal həmrəylik mədəniyyətinin yaradılmasına Azərbaycan töhfəsidir. Tarix unutmayacaq.

Hərbi Qənimətlər Parkı kimi bir mədəniyyət ocağının təsisi də 2021-ci ilin bəxtinə düşdü. Bu parkda düşmənin mərmiləri, silah-sursatı dinc məqsədlər üçün – oturacaq, gündən, yağışdan qoruyan vasitə kimi yeni məzmun qazanıb... Hərbi Qənimətlər Parkının fəlsəfəsinə, dizaynına, modelinə alqış düşür!

...2021-ci il başa çatdı: şirini, uğuru ilə birgə acısı, kədəri oldu, itkilərimiz oldu. Neyləmək olar, həyat belədir... Şəhidlərimizin qanları yerdə qalmadı, düşməndən layiqli intiqam alındı. Düşmən gördü ki, "Dəmir yumruq" yerindədir! "Dəmir yumruğ"a Ağoğlanda qoyulan dəmir heykəl də çox anlamlıdır. Bu, yenə gücün mədəniyyətə, mədəniyyətin gücə çevrilməsi təntənəsidir! ...Yeri gəlmişkən, Hadrut da daxil olmaqla, şəhər, qəsəbə, kəndlərimizə öz doğma türkcəmizdə adlar verməli, əsasən də tarixi adlarımızı bərpa etməklə, adqoyma mədəniyyətimizin gücünü ifadə etməliyik. Bu, şəxs adlarına münasibətdə də milli təzahürləri ilə görünməlidir: yararsız, yaxud qeyri-milli adları mümkün qədər azaltmalı, öz duru, gözəl, anlamlı adlarımızı adqoyma dövriyyəsinə qaytarmalıyıq. Qoy, qalib ölkənin balaları öz adlarımızla böyüsün! Bir də, milli soyad sonluqlarımızla bağlı təsirli addımlara, zəruri irəliləyişə ehtiyac olduğunu düşünürəm. Bu özü bir mədəniyyət hadisəsi, kulturologiyanın əhatə dairəsinə girən mövzudur.

27 sentyabr – Şəhidləri Anım Günündə dövlətimizin ali zirvəsinin əllərində şəhidlərin plakatı ilə yürüş təşkil etməsi, Zəfər Muzeyinin təməlinin qoyulması, respublika üzrə sükut dəqiqəsi... unudulmaz. Xocalı Soyqırımının 20-ci, 25-ci ildönümlərində də dövlətin ali rəhbərliyi başda olmaqla yürüşlər təşkil olunmuşdu. Şəhidlərimizə dərin sayğının ən yüksək rəsmi səviyyədə göstərilməsi bizim yaddaş mədəniyyətimizi, ehtiram mədəniyyətimizi nümayiş etdirir.

Anım Günündən sonra hər şəhidin anım və doğum gününün ayrıca qeyd edilməsi, Şəhidlər xiyabanlarımıza, şəhid məzarlarına izdihamlı ziyarətlər anım mədəniyyətimizin göstəricisi idi. Xüsusilə, Vətən müharibəsi şəhidlərinin dəfn olunduğu II Fəxri xiyabanda ötən ildə bir neçə dəfə ziyarətdə olarkən, hər qəhrəman Vətən övladının qəbri üzərindəki xatirə şəkillərinə, gül topası içindəki məktublara diqqətlə baxdım, oxudum, duyğulandım, kədər qarışıq qürur hissi çulğadı məni. Biz böyük xalqıq! Bizim vətən sevgimiz, vətən uğrunda canını fəda etmiş oğullarımıza sayğımız əvəzsiz bir mədəniyyət örnəyidir! Şəhidlərimizin ruhuna əbədi ehtiram!..

Bəli, yeni ilin – Şuşa ilinin ilk günlərini yaşayırıq. Cənab Prezident əziz şəhərimizin şərəfinə, şəhərin qurulmasının 270-ci ildönümü münasibətilə 2022-ci ili Şuşa ili elan edib. Şuşanın bənzərsiz tarixi görkəmini, formalaşdırdığı özünəməxsus mühiti, şəhərin yetirdiyi böyük şəxsiyyətlərin xidmətlərini xüsusi vurğulayan dövlət başçısının sərəncamında oxuyuruq: "Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır...

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır".

Şuşa ili Şuşanın Mədəniyyət paytaxtı olması səbəbi ilə yenə mədəniyyət ili kimi xarakterizə oluna bilər. Bu il Şusaya, Ağoğlana, Zəngilana ilk geridönüşə ümid edirik. Bu, ümiddən artıq inamdır. Yurd yerlərimizin yenidən məskunlaşdırılması üçün mümkün sürət və keyfiyyətlə işlər görülür. Sizə deyim, bizim hər sakinimizin dönüşü onlarca separatçının, qırıq-sökük, fərari istehsalçısı, yenilmiş "yenilməz Ermənistan ordusu" mənsubunun çevrədən öz-özünə perikməsi demək olacaq. Sakitcə yaşamaq, işləmək istəyənlərin qorxusu-hürküsü olmasın: biz birgəyaşayışın ən gözəl örnəklərini yaradan, yaşadan, qoruyan zehniyyətə sahibik. Qanuna uyanla qanunla, qanunsuzluq, xaos tərəfdarları ilə də "itiqovan"la danışa bildiyimiz hər kəsə məlumdur.

...Azərbaycan Prezidentinin ötən il 26 fevralda beynəlxalq səviyyəli mətbuat konfransı keçirdiyini, 31 mart – Azərbaycanlıların Soyqırımı Günündə Türk Dövlət Başçılarının onlayn Zirvə Görüşünün keçirildiyini və hər iki gündə dünyaya verilən önəmli ismarıcları xatırlayıram. Bu il Xocalı Soyqırımının 30-cu ildönümüdür. Dövlətimiz bu kədərli ildönümünü də adımıza, tariximizə, tarixi Zəfərimizə, böyük gələcəyə sarsılmaz inamımızla ləyaqətlə keçirəcəkdir.

Şuşa ilində Murovdağın aşırımlarından deyil, bağrından keçən, Qafqazın 11 kilometrlik tunel yolunun açılışına inanırıq. Bu və bənzəri yol, körpü, tunel tikintiləri inqilabi hadisələrdir: 70 illik SSRİ-nin edə bilmədiyi yaxud etmək istəmədiklərini ağır müharibədən çıxmış, ağır işğala son vermiş müstəqil dövlətimiz edir – öz hesabına edir. Bu müstəqillik nemətinin, azad ölkə mədəniyyətinin, hürr iradənin ifadəsidir!..

İştirakçısı olduğumuz beynəlxalq tədbirlərdə, uyğun platformalarda erməni vandallığının acı nəticələri – işğaldan böyük zərər görmüş tarixi, mədəni abidələrimizin durumu haqqında 2022-ci ildə də danışacaq, həqiqətlərimizin daha geniş yayılması üçün çalışacağıq. Şuşa ilində Şuşada keçiriləcək beynəlxalq festivallar dünya mediasında gündəm olacaq. Yeni dostlar qazanacağıq, yeni istedadlar üzə çıxacaq, yeni əsərlər yazılacaq.

"Şuşa ili", "Nizami ili", "Könüllülər ili", "Nəsimi ili", "Xalq Cümhuriyyəti ili" ömrümüzə ömür calayır, həyatımıza rəng qatır, baxışlarımıza dərinlik və üfüq qazandırır. 44 günlük müharibə "Könüllülər ili"ndə oldu: minlərlə Vətən övladı cəbhəyə yazılmaqla xəlqi cəsarət ruhumuzu bütün parlaqlığı ilə göstərdi! Şuşaya yalnız təlim, texnika gücü ilə gedib çıxmaq olardımı? Oğullarımızı Şuşanın keçilməz dağlarına qaldıran ruhun gücü idi!!!

2022-ci ilin, 270 yaşın mübarək olsun, əziz Şuşa!

***Əkbər QOŞALI,***
***şair-publisist,***
***Beynəlxalq "Alaş" Ədəbi Mükafatı laureatı***